# CROCUSOFT PROFİL TƏQDİMATI




**Biznesinizə dəstək olan proqram təminatı həlləri**

2024

CROCUSOFT

# BİZ KİMİK?

2015-ci ildə əl-ələ verib, şirkətimizi yaratdıq.

Yerli şirkətlərə proqram həlləri hazırlaya-hazırlaya böyüdük.

Beynəlxalq şirkətlərlə əməkdaşlığa başladıq.

Qlobal bazarda da çiyin-çiyinə mübarizəmiz davam edir

Çünki biz hərflərlə deyil, rəqəmlərlə danışırıq.
Gəlin, davam edək

CROCUSOFT

# MİSSİYA Və VİZYON

TƏZƏ-TƏZƏ FİKİRLƏRLƏ TƏRƏFDAŞLARIMIZIN GƏLİRLİLİYİNİ, EFFEKTİVLİYİNİ QAT-QAT ARTIRMAQ. QLOBAL BAZARDA DAHA GENİŞ PAY SAHİBİ OLMAQ, ÖLKƏMİZİN XARİCDƏKİ İNNOVASİYA ÜZÜNƏ ÇEVRİLMƏK.

RƏQƏMSAL BAYRAQDAR OLMAQ ÜÇÜN HƏR GÜN İNKİŞAF EDİR, HƏR GÜN YENİLİKLƏRİ İZLƏMƏKLƏ YANAŞI, YENİLİKLƏR YARADIRIQ!

CROCUSOFT

# HAZIRDA 3 ÖLKƏDƏ FƏALİYYƏTİNİ DAVAM ETDİRMƏKDƏDİR.

**Böyüyə-böyüyə getdik!**
**Bacarıqlarımız genişlənə-genişlənə ölkənin sərhədlərini aşdı.**
**Sevinə-sevinə Türkiyə və BƏƏ-də də ofisimizi açdıq.**

**Bu xəbər vizyonumuzun genişliyini və işləkliyini sübut edir.**



CROCUSOFT

# HAZIR VERƏ BİLƏCƏYİMİZ BİZNES HƏLLƏRİ

1. İşə Qəbul Portalı
2. Monitorları İdarəetmə Sistemi
3. Musiqinin uzaqdan idarəetmə sistemi
4. Kompleks
5. Telegram Bot
6. Avtomatlaş-dırılmış
7. Agent Şəbəkəsi

CROCUSOFT

# ƏGƏR PORTFOLİOMUZDAKI 10 LOQODAN 7-SİNİ TANIYIRSINIZSA, DEMƏK Kİ, PORTFOLİOMUZU UĞURLU HESAB ETMƏK OLAR

Bizim ortaq tanışlarımız çoxdur.
Böyük ehtimalla müştərilərimizin müştərilərindənsiniz.

Çünki dövlət və özəl sektorda fəaliyyət göstərən qabaqcıl şirkətlərlə çalışırıq.

CROCUSOFT

# BƏS ONLAR NİYƏ BİZİ SEÇDİ?

- Ofisimizə qonaq oldular
- Komandamızla tanış oldular
- Gördüyümüz işləri göstərdik
- Eyni tezlikdə olduğumuzu gördülər
- Tezliklə əməkdaşlığa başladıq :)

CROCUSOFT

# ƏMƏKDAŞLIQ BAŞLAYAR-BAŞLAMAZ BİZ NƏ EDİRİK?

1. Sistem analizi
2. Biznes analizi
3. Resurs analizi
4. Layihə planı
5. İnkişaf
6. Sınaq
7. Başlanğıc
8. Dəstək
9. Layihəyə nəzarət

CROCUSOFT

# NƏLƏR EDİRİK?

Enterprise həllər

NƏLƏR

Veb həllər

Mobil həllər

Digər IT həllər

CROCUSOFT

# Smart Customs

**Bəyan edirik ki, onlayn alış-veriş edənlərin yaxından tanıdığı, növbəti tətbiqimiz Smart Customs tətbiqi də bizim əməyimizin məhsuldur. Smart Customs vasitəsilə həm limitlərə nəzarət edə bilirsiniz, həm də limiti aşsanız belə gömrükdə uzun prosedurlar keçmirsiniz. 1 milyon+ istifadəçiyə xidmət göstərən tətbiqi günü-gündən təkmilləşdiririk.**



CROCUSOFT

# E-POLİS

Tətbiq vasitəsilə məhkumluq, nəqliyyat vasitəsinin zədələnməsi, axtarışda olması və yüklü olması, icbari sığorta və vətəndaşın olduğu yer üzrə arayışlar üçün müraciətlər etmək və onları rəqəmsal formada əldə etmək mümkündür.

Habelə yeni veb tətbiqində sürücülük vəsiqəsi, şəxsiyyət vəsiqəsi, ümumvətəndaş passportu, arayışlar və etibarnamələr kimi bölmələr yerləşdirilib.



CROCUSOFT

# eqanun.az

Vaxtı ilə daş üzərinə mixi yazılarla yazılan qanunları bu dəfə kodlarla ağ səhifə üstünə yazdıq.
E-qanun.az dövlət və özəl sektor tərəfindən aktiv istifadə edilən veb platformadır. Sənədlərə dair detallı axtarış imkanı ilə yanaşı həm də əməliyyatlar da apara bilərsiniz.



CROCUSOFT

# Mobil Notariat

**Saatlarca növbə gözləmək, uzun-uzun prosesləri izləmək və daha dəyərli yerlərə sərf edəcəyin vaxtı bir binanın içində keçirmək?**
**Cavab: Xeyr!**
**Çünki Mobil Notariat tətbiqi var və pulsuz qeydiyyatdan keçərək, bütün notariat əməliyyatlarını bir neçə kliklə rahatlıqla icra edə bilərsiniz. Üstəlik, 7 gün 24 saat.**



CROCUSOFT

# Eqanun

**Axtardığınız məlumatı rahatlıqla tapa biləcəyiniz mobil tətbiq. Qanunun Google-si də deyə bilərik. Çünki detallı axtarış edə, sənədləri yükləyə, əməliyyat apara, müqayisə edə bilərsiniz.**



CROCUSOFT

# belediyye.gov.az

**İşlərimizə bələd olan qurumlardan biri də bələdiyyələrdir. Məhz onların sifarişi ilə ərsəyə gətirdiyimiz bu portal vasitəsilə vətəndaş və bələdiyyə kommunikasiyası sadələşib. Bir sözlə kağızdan istifadə minimuma endirilib.**



CROCUSOFT

# Mobil Əhali

Yəqin ki, arayış və şəhadətnamələri ən rahat yolla əldə etmək arayışında olmusunuz. Bütün bu arayışlara son qoyacaq Mobil əhali funksiyasını da biz hazırlamışıq.



CROCUSOFT

# AeroLINE-CREW

**Göylə getdiyimiz növbəti proyekt isə AeroLine Crew üçün hazırladığımız tətbiqdir. Bu tətbiq vasitəsilə aviaşirkətin ekipaj üzvləri öz uçuşları ilə bağlı məlumat əldə edə, hesabatlar təqdim etməklə yanaşı, uçuşla bağlı bir çox tapşırığı idarə edə bilərlər.**



CROCUSOFT

# hr.kapitalbank.az

**Növbəti işimizin adı: hr.kapitalbank.az**
**Bu, Kapital Bank üçün hazırladığımız işə qəbul portalıdır.**
**hr.kapitalbank.az saytı həm namizədlər, həm də işə qəbul komandasının əməkdaşları üçün əlverişli, rahat və funksionaldır.**



CROCUSOFT

# hrrecruitment.veyseloglu.az

**Namizədlərin bir portaldan bir neçə iş yerinə müraciət edə biləcəkləri vahid işə qəbul platforması olan hrrecruitment.veyseloglu.az təhvil verdiyimiz uğurlu layihələrdən biridir. İşə qəbul porfoliomuz geniş olsa da hər bir şirkətin ehtiyaclarına uyğun funksiyalar əlavə edib, portalı unikallaşdırırıq.**



CROCUSOFT

# Dəyərlisən

**Bizim növbəti dəyərli tərəfdaşımız Pasha Holding-dir. Dəyərlisən mobil tətbiqi ilə Pasha Holding əməkdaşları endirimlərdən, kampaniyalardan, üstünlüklərdən dərhal xəbərdar olur və yararlanır.**



CROCUSOFT

# Oba Market

**Loyallıq mobil tətbiqlərimizdən demək olar ki, ən geniş istifadə ediləni isə Oba market üçün hazırladığımız tətbiqdir. Bu tətbiq vasitəsilə müştərilər bonuslar qazanır, bonuslarla alış-veriş edə bilir.**



CROCUSOFT

# Oba Terminal

**Obanın içində bizim də "evimiz" var. Belə ki, Oba Marketin daxili mobil proqram təminatını da biz hazırlamışıq.**
**Mal qəbulu, transfer, imha, iadə, sayım, monitorinq kimi bir çox vaxt aparan prosesləri daha da sürətli edən mobil tətbiqin istifadəsi də rahatdır. Əməkdaşlar asanlıqla qeyd olunan məlumatları qruplaşdıra, emal edə, silə və yeniləyə bilər.**



CROCUSOFT

# job.oba.com.az

**Elektron obamızda tikdiyimiz növbəti işə qəbul portalının sifarişçisi isə hamımızın qonşusu olan Oba Marketdir. 1200-dən çox nöqtədə fəaliyyət göstərən Oba marketdə çalışmaq istəyən namizədlər hrrecruitment.oba.com.az saytından qeydiyyatdan keçib, seçdikləri vakansiyaya müraciət edə bilərlər.**



CROCUSOFT

# Araz Super market

**Sadiq tərəfdaşlarımızdan olan Araz Supermarket üçün hazırladığımız tətbiqi təqdim edirik. Tətbiqdə loyallıq kartlarını idarə edə etmək, kampaniyalardan, endirimlərdən müştəriləri dərhal xəbərdar etmək çox asandır.**



CROCUSOFT

# Araz Super market

**Növbəti super işə qəbul portalımız isə Araz Supermarket üçün hazırlanıb. Bir çox vaxta qənaət aləti ilə zəngin olan portalın istifadəsi də olduqca asandır.**



CROCUSOFT

# Topaz.az

Mərc edə bilərik ki, ən yaxşı işlərimizdən bir neçəsi də tərəfdaşımız olan Topaz üçün hazırlanıb. Saytın yenilənməsini bizə həvalə edən tərəfdaşımız bundan əlavə, loyallıq tətbiqində də bizə güvənib. Topaz Fan club adlı bu tətbiq zəngin funksiyalara sahibdir. Mərc biletlərindən keşbək, keşbəklərin vəsaitə çevrilməsi, uduşlu biletlərdən xallar qazanmaq kimi bir çox funksiyanı özündə birləşdirən tətbiqin istifadəsi rahat və əyləncəlidir. Topaz ilə növbəti əməkdaşlığımız isə B2B və B2C CRM-i oldu.
CRM vasitəsilə agentlərin, məntəqələrin, anbarların idarə olunması asanlaşdı.



CROCUSOFT

# Topaz B2B/B2C CRM

**Sizə Topaz üçün hazırladığımız yeni B2B CRM-i təqdim edirik.**

- Agentlərin idarə olunması
- Hər növ avadanlığın idarəsi
- Anbarların idarəsi
- Sənədlərin tarixçəsi
- Məntəqələrin idarəsi
- Zənglərin qəbul edilməsi
- FAQ bölməsi
- Geolokasiyalar
- SMS funksiyası



CROCUSOFT

# MilliÖn

**Milli brendlərlə növbəti əməkdaşlığımız MilliÖn-dür.**
**200+ korporativ tərəfdaşı olan MilliÖn-ün xidmətlərindən böyük ehtimalla yararlanmısınız.**



CROCUSOFT

# amcham.az

Sayt vasitəsilə qeydiyyatdan keçib, M2M layihəsindən yararlana bilərsiniz. M2M sizə imkan verir ki, üzv şirkətlərə tətbiq olunan endirimlərdən yararlanasınız.



CROCUSOFT

# hr.166.az

**166 üçün işə qəbul portalı hazırlamaq yükü də bizə düşüb. Digər yüklər kimi bunu da uğurla daşıyıb, sahibinə təhvil vermişik. Hr.166.az portalında namizədlər rahatlıqla özlərinə uyğun vakansiyaları tapıb, müraciət edə bilərlər. İşə qəbul tərəfi də portalın üstünlüklərindən maksimum yararlanaraq, vaxtına qənaət edir.**



CROCUSOFT

# 189 TAXİ

**Cəmi 2 xana doldurmaqla qeydiyyat və gedişə başlamaq. Tətbiq vasitəsilə korporativ taxi xidmətindən də yararlanmaq mümkündür.**



CROCUSOFT

# aze.basketball

**Div kimi böyük işlərdən növbətisi isə Basketbol Federasiyası üçün hazırladığımız aze.basketball saytıdır. Basketbolumuz haqqında demək olar ki, bütün məlumatları burada tapa bilərsiniz.**



CROCUSOFT

# bilim.az

**Bildiyiniz kimi, uşaqlar və böyüklər üçün maraqlı, faydalı, əyləncəli sayt var – Bilim.az**
**Saytın bütün funksiyalarından xəbərdar olmaq üçün sayta keçid edin.**



CROCUSOFT

# mathyoucan.com

**0 və 1-in köməyi ilə hazırladığımız bu proyekt sizə SAT imtahanına hazırlaşmağa kömək edəcək.**
**Saytdan dərsliklər əldə edib, imtahan materiallarından istifadə edə bilərsiniz.**



# NORM Distributor

**Norm mobil distributor tətbiqi, distributorların əməliyyatlarını asanlaşdırmaq üçün nəzərdə tutulmuşdur. İstifadəçilər məhsulların statusunu, cari məkanını və daşınma məlumatlarını izləyə bilirlər. Əlavə olaraq, sorğuları təsdiqləmək və ya təxirə salmaq, bildirişləri izləmək və profil məlumatlarını idarə etmək funksiyaları mövcuddur.**



CROCUSOFT

# NORM- Daşıma Şirkətləri

Norm mobil daşıma şirkətləri tətbiqi, daşınma prosesini optimallaşdırmaq üçün yaradılmışdır. İstifadəçilər daşınma əməliyyatlarının statusunu izləyə, sifarişləri təsdiqləyə və ya imtina edə, həmçinin bildirişləri və profil məlumatlarını idarə edə bilərlər. Tətbiqdə filtrləmə və axtarış funksiyaları ilə məlumatlara asanlıqla çıxış mümkündür.



CROCUSOFT

# iFermer

**iFermer mobil tətbiqi, fermerlərin və aqronomların əkin məlumatlarını idarə etmələri, post paylaşmaları və elan vermələri üçün nəzərdə tutulmuşdur. Tətbiq istifadəçilərə hava proqnozları, bildirişlər, rəylər və əkin məlumatları kimi funksionallıqları təklif edir. İstifadəçilər həmçinin post və elanları paylaşa, profil məlumatlarını idarə edə bilərlər.**



CROCUSOFT

# Holcim UK

Holcim UK mobil tətbiqi, sement məhsulları ilə məşğul olan ustalar üçün hazırlanmışdır. Tətbiq QR kodları ilə bonus toplama, hədiyyə kataloqundan faydalanma və məhsullar haqqında məlumat əldə etmə kimi funksiyaları əhatə edir. Müasir dizaynı və yüksək təhlükəsizlik standartları ilə bütün cihazlarda əlçatan olacaqdır.



CROCUSOFT

# AVT logistika

**İşə qəbul logistikasının ən rahat yollarından biri də AVT Logistika şirkəti üçün yaradılıb. Ölkənin ən böyük logistika şirkətlərindən biri olan AVT şirkəti öz işə qəbul prosesini avtomatlaşdırmış, daha əlçatan etmişdir.**



# Biomas

**Veysəloğlu şirkətinin sifarişi ilə hazırladığımız bu proyekt əməkdaşların giriş-çıxış loqlarını vahid mərkəzdə toplamağa xidmət edir.**



CROCUSOFT

# Cadenza Orchestra

**Notlardan yox, kodlardan istifadə edərək bəstələdiyimiz saytı təqdim edirik. Sayt Azərbaycan musiqisi üçün faydalı olmaq üçün fəaliyyət göstərir. Musiqi ilə yaşayanlar üçün sayta daxil olub, xüsusi günlərdən xəbərdar olmaq tövsiyə edilir.**



CROCUSOFT

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzi

"İnci tək bir saflıq olsa da kodda
Çox yazılanda zərərdir o da"
şüarından yola çıxıb, sadə, nizamlı və gözoxşayan sayt ərsəyə gətirdik.

nizamiganjavi-ic.org saytına daxil olsanız, sirrlər xəzinəsinə sahib ola bilərsiniz.



CROCUSOFT

# Ekvita.com

**Yerli və xarici tərəfdaşlara xidmət göstərən bir şirkətə xidmət göstərməkdən, onların biznesinə dəyər qatmaqdan qürur duyuruq. Sayta keçid edərək, Ekvita-nın xidmətlərindən yararlana bilərsiniz.**



CROCUSOFT

# DİGƏR İŞLƏRİMİZ

Düşünürük ki, kifayət qədər özümüzdən danışdıq. Bu siyahını çox uzada bilərdik. Məsələn, , dgk.gov.az, 166.az, pickvisa.com, abad.gov.az, myshop.com və onlarla şirkət.

İstərdik ki, sizin də şirkətinizin adı siyahımızı uzatsın və bəzəsin.












CROCUSOFT

# ƏMƏKDAŞLIQ ETDİYİMİZ ŞİRKƏTLƏR

Kapital Bank
BİRİNCİ BANK

PASHA Holding

PAŞA Sığorta

PAŞA Həyat

PashaPay

araz Supermarket

OBA

NORM
ƏSL SEMENT

TOPAZ

AZƏRBAYCAN RESPUBLİKASI
ƏDLİYYƏ NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

Holcim
Azerbaijan

AirArabia
العربية للطيران

million

VEYSƏLOĞLU
ŞİRKƏTLƏR QRUPU

AZƏRBAYCAN
DÖVLƏT TURİZM AGENTLİYİ

bp

# ƏMƏKDAŞLIQ ETDİYİMİZ ŞİRKƏTLƏR

- İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
- Hilton BAKU
- AMCHAM AMERICAN CHAMBER OF COMMERCE IN AZERBAIJAN
- 166 YÜKDAŞIMA VƏ LOGİSTİKA
- ABAD
- Azərbaycan Cüdo Federasiyası
- mathyoucan
- portmanat
- evelani.az
- FALCON INTERNATIONAL
- AZƏRBAYCAN BASKETBOL FEDERASİYASI 1992
- ALTÜST MEDIA
- TRITON CONSULTING
- ELEVEN KINGS
- 189
- EKVITA
- TRAVELL GROUP
- AKHUNDOFF GROUP
- caspiantech

CROCUSOFT

# NEÇƏ-NEÇƏ İŞLƏR TƏHVİL VERDİK.

Siz bizim **101-ci** məmnun tərəfdaşımız ola bilərsiniz :)

Bundan öncə **100** tərəfdaşımız üçün **135 layihə** təhvil vermişik.

Sevə-sevə sizinlə də layihə həyata keçirmək istəyərik.

CROCUSOFT

# OFİSİMİZƏ GƏLİN, LAYİHƏNİ DANIŞA-DANIŞA ÇAY İÇƏK.



sales@crocusoft.com

+994 51 206 09 20

Nəsimi rayonu, Zərifə Əliyeva 55,
"Yeni Hayat" Plaza, AZ1010